Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Əhmədov Xudakərim Əhməd oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 395 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 04 yanvar 2010-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2009-cu ilin dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə Qızılkənd bələdiyyəsinə keçirilmiş seçkilərlə əlaqədar Əhmədov Xudakərim Əhməd oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına 04 yanvar 2010-cu ildə daxil olmuş 395 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən, araşdırmaya qəbul edilmişdir.

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Əhmədov Xudakərim Əhməd oğlu və digərləri 2010-cu il yanvarın 04-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, 80 saylı İmişli-Beyləqan seçki dairəsinin dairə seçki komissiyasının hərəkətsizliyindən şikayət etmişdir. O, şikayətə səbəb kimi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına daxil olmuş və aidiyyəti üzrə baxılması üçün həmin dairə seçki komissiyasına göndərilmiş müraciətinə baxılmamasını göstərmişdir.

Müraciət tərəfimdən araşdırılmış və dairə seçki komissiyası tərəfindən təqdim olunan sübutlara əsasən dairə seçki komissiyasının heç bir hərəkətsizliyə yol verməməsi təsdiqini tapmışdır. Belə ki, 80 saylı İmişli-Beyləqan seçki dairəsi dairə seçki komissiyasının 29 dekabr 2009-cu il tarixli qərarı ilə Əhmədov Xudakərim Əhməd oğlu və digərlərinin dairə seçki komissiyasına daxil olmuş qeyd olunan müraciəti ilə bağlı müvafiq qərar qəbul edilmiş, qərarın surətinin vətəndaşlara çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın” 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən rəyə gəldim:

1. Vətəndaş Əhmədov Xudakərim Əhməd oğlu və digərlərinin 04 yanvar 2010-cu il tarixli 395 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar 24 saat müddətində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov